

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 95 (21.756)

*19 may 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 18-də Qaradağ rayonunda, SOCAR-ın "Caspian Drilling" Şirkətinin dəniz təchizat və logistika bazasında Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "Caspian Drilling" Şirkətinin baş direktoru Fərid Axundov dövlətimizin başçısına qurumun 1996-2016-cı illər ərzində fəaliyyəti, əməliyyatlar üzrə səmərəli vaxt cədvəlinin dünyanın digər qazma şirkətləri ilə müqayisəsi, həmçinin Heydər Əliyev adına yarımdalma qazma qurğusu barədə məlumat veriblər.

Prezident İlham Əliyev SOCAR-ın və "Caspian Drilling" Şirkətinin rəhbərliyi, layihədə çalışanlar, həmçinin ölkədə pay bölgüsü sazişlərində iştirak edən xarici şirkətlərin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımdalma qazma qurğusunun yaşayış blokunda da olub.

Sonda xatirə şəkli çəkdirilib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.

Ali Məclisin Sədri Azərbaycanda səfir kimi fəaliyyətə başlaması münasibətilə Erkan Özoralı təbrik etdi, strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrinin xalqlarımızın eyni kökə və tarixinə əsaslandığını bildirdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il mayın 28-də Naxçıvan və Türkiyə arasında körpünün açıldığını və ötən dövrdə əlaqələrin inkişaf etdiyini xatırladan Ali Məclisin Sədri Naxçıvanın muxtariyyət statusu qazanmasında və ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdə Türkiyənin rolundan danışdı. Ali Məclisin Sədri Naxçıvanla Türkiyə arasında müasir gömrük-keçid kompleksinin və ikinci körpünün tikintisini, Bakı-Tbilisi-Qars dəmir yolunun və digər layihələrin həyata keçirilməsini ikitərəfli münasibətlərin gələcək inkişafına, eləcə də xalqlarımız arasındakı birliyin daha da möhkəmlənməsinə hesablandığını vurğuladı.



Naxçıvanın Türkiyənin türk dünyasına və türk dünyasının da Türkiyəyə açılan qapısı olduğuna diqqəti çəkən Ali Məclisin Sədri muxtar respublikanın ölkələrimiz arasındakı əlaqələrin inkişafına bundan sonra da töhfə verəcəyini bildirdi.

Erkan Özoral göstərilən diqqətə və xoş münasibətə görə minnətdarlıq etdi, qardaş ölkədə fəaliyyət göstərməyin onun üçün şərəf olduğunu vurğuladı. Mühüm strateji mövqeyə malik olan Naxçıvanın Türkiyə və Azərbaycan əlaqələrinin inkişafındakı əhəmiyyətindən danışan səfir diplomatik fəaliyyəti dövründə əməkdaşlığın daha da genişləndirilməsinə çalışacağını bildirdi.

Türkiyənin Naxçıvandakı baş konsulu Nihat Ərşən görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti" mövzusunda tədbir keçirilib





*Mayın 18-də Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti" mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov açaraq suveren dövlətçiliyimizin əsasını təşkil edən qurumun fəaliyyətindən, ölkəmizdəki siyasi sabitlik, sosial-iqtisadi inkişaf nəticəsində miqrantların sayının artmasından danışıb. Prorektor Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin ali təhsil ocağı ilə sıx əməkdaşlığından söhbət açıb. O vurğulayıb ki, 1998-ci ildə Xarici tələbələr üzrə dekanlığın yaradılması bu əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradıb. Hazırda universitetdə 18 ixtisas üzrə 232 xarici tələbə təhsil alır. Bunlardan 205-i Türkiyə, 12-si İran, 1-i İraq, 2-si Qazaxıstan, 2-si Koreya, 10-u Nigeriya vətəndaşıdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Şahin Nəbiyev "Naxçıvan Muxtar Respublikasında miqrasiya prosesləri" mövzusunda çıxışında qeyd edib ki, rəhbərlik etdiyi qurum öz vəzifələrini yerinə yetirərkən, hüquqlarını həyata keçirərkən mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. O qeyd edib ki, məqsəddən asılı olmayaraq Azərbaycan Respublikasına daxil olan hər bir kəs Azərbaycan Respublikasının Konstitusiyasına uyğun davranmalı, milli və mənəvi dəyərlərimizə hörmət nümayiş etdirməlidir.

Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarından İlkin Rəhimov "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olması", Kənan Məmmədov "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti yaşaması", Qiyas Paşayev "Dövlət Miqrasiya Xidməti tərəfindən göstərilən elektron xidmətlərin əyani şəkildə izahı" və Zakir Məmmədov "Miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə mövcud qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət" mövzusunda çıxış ediblər.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə IV kurs tələbəsi Çevik Tolgahan xarici tələbələri məlumatlandırdıqları üçün xidmət əməkdaşlarına tələbələr adından minnətdarlığını bildirib.

Sonda Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov və Dövlət Miqrasiya Xidmətinin rəisi Şahin Nəbiyev xarici tələbələrə müvəqqəti yaşamaq üçün icazə vəsiqələri təqdim ediblər.

**"Şərq qapısı"**

## Naxçıvan şəhərində quruculuq işləri davam etdirilir

Naxçıvan şəhərində hər il geniş quruculuq işləri aparılır, ictimai və inzibati yaşayış binaları müasir arxitektura üslubunda əsaslı təmir olunur, insanların sosial-məişət şəraiti yaxşılaşdırılır. Milli və müasir memarlıq üslubunda inşa olunan çoxmənzilli ictimai yaşayış binaları qədim Naxçıvan şəhərinin arxitektura quruluşunu daha da zənginləşdirir, sakinlərin müasir və rahat mənzillərlə təminatına səbəb olur.

Bu tədbirlərin davamı kimi Naxçıvan şəhərində cari ildə də bir neçə ünvanda yerləşən yaşayış binalarında yenidənqurma işləri aparılır. Yenidən qurulan binalardan biri də Naxçıvan şəhərinin Həsən Əliyev küçəsində yerləşən 2 nömrəli yaşayış binasıdır.

İş icraçısı Zamin Şükürovdan aldığımız







məlumata görə, 4 mərtəbədən ibarət olan binada təmir-bərpa işlərinə cari ilin fevral ayından başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən yenidənqurma işləri aparılan binanın balkonlarında hazırda hörgü işləri görülür, daxildə suvaq işləri aparılır, elektrik, su və kanalizasiya xətləri çəkilir. Yenidənqurma işləri zamanı bina arxaya doğru 3 metr artırılıb ki, bu da gələcəkdə sakinlərin daha geniş yaşayış sahəsindən istifadə etməsinə imkan yaradacaq.

Şəhərdə tikintisi davam etdirilən obyektlərdən biri də Cəlil Məmmədquluzadə küçəsində inşa edilən yeni Ticarət Mərkəzi və Otel Kompleksidir. İş icraçısı Fəxrəddin Səfərovdan aldığımız məlumata görə, binanın birinci mərtəbəsində iki kinozal, dörd fərqli mətbəxə məxsus restoran, ictimai iaşə obyektləri, hədiyyələr mağazaları fəaliyyət göstərəcək.

İkinci mərtəbədə isə otel yerləşəcək. Həmçinin zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət saat qülləsi də yaradılacaq, buraya iki saat yerləşdiriləcək. Qüllənin birinci mərtəbəsi giriş, ikinci mərtəbəsi mətbəx, digər mərtəbələrin hər biri isə kafe üçün nəzərdə tutulub. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən hazırda ikinci mərtəbədə suvaq işləri aparılır, fasadına üzləmə vurulur, binanın çardaq hissəsi qurulur, istilik, elektrik xətləri çəkilir.

**Nail ƏSGƏROV**

## Muxtar respublika iqtisadiyyatında özəl sektorun rolu artır

***Yeni iqtisadi şəraitdə yerli ehtiyatların fəal olaraq iqtisadi dövriyyəyə cəlb olunması və bu yolla əhali məşğulluğunun təmin edilməsi regional inkişafın əsas prioritetlərindən sayılır. Bu baxımdan ölkəmizdə qeyri-neft sektorunun inkişafına göstərilən diqqət və bununla bağlı görülən işlər arasında Naxçıvan Muxtar Respublikasının öz xüsusi çəkisi vardır. Belə ki, son illər özəl sektorda həyata keçirilən layihələr iqtisadiyyatın şaxələndirilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayıb. Bazar rəqabəti şərtlərində sahibkarlara dəstək verilməsi, işgüzar fəallığın artırılması məqsədilə vahid konfederasiya ətrafında onların könüllü ittifaqının yaradılması qarşıya qoyulmuş məqsədlər baxımından əhəmiyyətli olub. 2006-cı ildən bəri fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası bu istiqamətdə çalışaraq sahibkarların uğurlu biznes fəaliyyətinə öz dəstəyini göstərir.***

Hazırda Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının 36 üzvü vardır. Həmsöhbət olduğumuz konfederasiya sədri Vüqar Abbasov bu barədə danışaraq bildirdi ki, belə bir təşkilatda könüllülük əsasında birləşən sahibkarlarımızın məqsədi, şübhəsiz, Naxçıvan Muxtar Respublikasının hazırkı dövründə regionun sosial-iqtisadi inkişafına daha da yaxından töhfə vermək, daxili bazarda məhsul bolluğu yaratmaq, daha keyfiyyətli xidmətlər təşkil etməkdir. Sahibkarlıq fəaliyyətinə başlamaq istəyən iş adamlarına düzgün istiqamət verməyi özünün əsas vəzifələrindən biri hesab edən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası bu baxımdan sahibkarların hüquqlarını qorumağa, dövlət orqanları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edərək, yaradılmış şəraitdən maksimum istifadə olunmasına köməklik göstərməyə çalışır. Bunun üçün hazırda muxtar respublikamızda hər cür münbit şərait və əlverişli biznes mühiti vardır.

Naxçıvan Muxtar Respublikasında özəl sektorun inkişafı üçün göstərilən dövlət qayğısı həmişə hiss olunmaqdadır. “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının qurucusu və sahibkarı, eyni zamanda 2015-ci ildən muxtar respublika Sahibkarlar Konfederasiyasının sədri olan Vüqar Abbasov bunu xüsusilə vurğulayaraq bildirdi ki, bir vaxtlar Naxçıvanın düşdüyü blokada şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, naxçıvanlı iş adamları dövlət dəstəyindən faydalanaraq öz layihələrini reallaşdırmaqda böyük uğurlar qazanıblar. Bununla yanaşı, bazar iqtisadiyyatı daimi olaraq müəyyən problemlərin həll olunmasını və bu sahədə sahibkardan diqqət tələb edən bir mürəkkəb mühitdir. Bu da, öz növbəsində, biznesə yeni başlayan iş adamlarına metodoloji dəstək verilməsinə ciddi ehtiyac yaradır. Belə ki, hər bir sahibkar üçün iqtisadi imkanların qiymətləndirilməsində ona ilk olaraq informasiya təminatı vacib hesab olunur. Söz yox ki, bu vacib şərt, yəni işgüzar fəaliyyət üçün tələb olunan investisiya və innovasiya imkanları zəruri dəstək olmadan reallaşa bilməz. Məhz buna görə də ölkədə və regionda sahibkarlığın inkişafını onlara göstərilən dövlət qayğısı olmadan təsəvvür etmək çox çətindir.

Müasir biznes öz mürəkkəb xüsusiyyətləri ilə xarakterikdir. Bazardakı rəqabəti düzgün qiymətləndirmək, dünya bazarını öyrənmək, real tələbatı və dövlətin yeritdiyi iqtisadi siyasət prioritetlərinə görə fəaliyyət növünü seçmək sahibkarlarımız qarşısında vacib məsələlər kimi durur. Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası bu baxımdan mövcud şəraitdə iş adamlarını maraqlandıran əsas məsələlərdən biri olan bazar fürsətlərinin öyrənilib qiymətləndirilməsi işində öz köməyini əsirgəmir. Sahibkarlıq fəaliyyətinin bu əsas cəhəti sahibkarın işgüzar dünyagörüşünün artırılması olmadan mümkün deyildir. Bu məsələyə diqqəti cəlb edən konfederasiya sədri söhbətində bildirdi ki, naxçıvanlı sahibkarların dövri olaraq sərgi və yarmarkalarda, konfrans və digər işgüzar görüşlərdə iştirakının təmin olunması xüsusilə vacibdir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasını təmsil edən sahibkarların vaxtaşırı olaraq ölkəmizin paytaxtında və xarici ölkələrdə keçirilən tədbirlərdə iştirakı təmin olunur. Artıq naxçıvanlı sahibkarlar Avropa və Asiyanın xeyli sayda biznes qurumları ilə sərbəst əlaqələr saxlayır, sərgi və forumlara dəvətlər alırlar. Konfederasiyanın *www.nsk.org.az* saytı yaradılıb ki, burada da sahibkarlara maraqlı olan məlumatlar yerləşdirilib. Naxçıvanlı sahibkarların təşkil etdiyi arıçılar, quşçular və istixanaçılar birlikləri də, öz növbəsində, konfederasiya ilə sıx əlaqədə fəaliyyət göstərir, üzvlər ilə birlikdə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün səylərini əsirgəmirlər. Sahibkarların müasir biznesin tələbləri baxımından maarifləndirilməsi üçün kurslar təşkil olunur. Onları maraqlandıran məsələlərin həll olunması məqsədilə dövlət orqanları ilə birlikdə görüşlər təşkil edilir.

Muxtar respublikada sahibkarların uğur qazanması üçün hər cür şərait var. Naxçıvanda həyata keçirilən hər bir biznes layihəsi, son nəticədə, regionun daxili bazarının bolluğuna və əhalinin rifahına xidmət etdiyindən onlara göstərilən qayğı da dövlətin həyata keçirdiyi regional inkişaf siyasətinin mühüm bir hissəsidir. Bütün bunların məqsədi isə muxtar respublikada idxaldan asılılığın maksimum dərəcədə azaldılması, daxili bazarın tələbatlarının ödənilməsi ilə yanaşı, ixracyönümlü məhsulların istehsalına da geniş yer verilməsi, turizmin inkişafı hesabına valyuta gəlirlərinin artırılmasıdır.

Milli sahibkarlıq təbəqəsi Azərbaycan iqtisadiyyatının möhkəm sütunudur. Bu mühüm sahənin inkişaf etdirilməsinin əhəmiyyətini xüsusilə vurğulayan xalqımızın ümummilli lideri Heydər Əliyev hələ 25 aprel 2002-ci ildə ölkə sahibkarları ilə tarixi görüşündəki yekun nitqində demişdir: ***“Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq”.***

Keçilən yola nəzər saldıqda görürük ki, bir vaxtlar bəzi sadə məhsulları belə, xaricdən idxal etməyə məcbur olan ölkəmizdə çox qısa bir zaman ərzində reallaşdırılan iqtisadi strategiya öz bəhrəsini verib. Belə ki, çox sayda irimiqyaslı layihələrin başa çatdırılması, idxaldan asılılığın qarşısının alınması, ölkənin və onun regionlarının investisiya cazibədarlığının artırılması və daha önəmlisi yaxın region ölkələri üçün artıq investor roluna keçilməsi məhz dövlət-özəl sektor tandeminin uğurlu gedişlərinin nəticəsində mümkün olmuşdur. Bu yolda Naxçıvan Muxtar Respublikasında bir sıra uğurlar əldə edilib. Naxçıvanlı sahibkarların tikintidən ticarətə, emal sənayesindən turizmə, yeyinti sənayesindən avtomobilqayırmaya, poliqrafiyadan kənd təsərrüfatına və biznesin onlarla növdə digər sahələrində qazandıqları uğurlar bunların yalnız bir hissəsidir. İrəlidə isə daha yeni layihələr vardır.

**Əli CABBAROV**

## Ailə təsərrüfatlarının fəaliyyətinin təşviqi istiqamətində tədbirlər görülür

***Muxtar respublikada aqrar sahənin inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsi məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə əsas hədəflərdən biri də ailə təsərrüfatlarının inkişaf etdirilməsindən ibarətdir.***



Təsadüfi deyil ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın sosial-iqtisadi inkişafı haqqındakı nitqində çox mühüm bir məqama toxunub. Ali Məclisin Sədri bildirib ki, ***“Yeni müəssisələr yaradılarkən muxtar respublikanın bütün rayonları üzrə əmək və xammal ehtiyatları, təsərrüfatçılıq ənənələri nəzərə alınmalıdır. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemini həll edir, əhali gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Ona görə də ailə təsərrüfatlarının yaradılmasına üstünlük verilməlidir”.***

Ailə təsərrüfatlarının fəaliyyəti ailə üzvlərinin əməyinə əsaslanmaqla, məxsus olduqları ailələrdəki əmək qabiliyyətli insanların eyni məqsədə yönələn səmərəli məşğulluğunu reallaşdırmış olur. Bu subyektlər, əsasən, istehsalyönümlü iqtisadi fəaliyyət sahələrini əhatə edərək, muxtar respublikada daxili bazarın yerli məhsullarla təmin edilməsi baxımından da xüsusi önəm kəsb edir. Digər tərəfdən, aparılan işlər muxtar respublikada ailə təsərrüfatlarının sayının getdikcə artmasına şərait yaradıb ki, bu da əmək resurslarının səmərəli məşğulluq imkanlarını artırmaqla bərabər, iqtisadiyyatda mühüm faktorlardan olan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Bütün bunların nəticəsidir ki, muxtar respublikada çoxsahəli ailə təsərrüfatlarının sayı bu gün yüzlərlədir.

Ailə təsərrüfatlarına metodik və əməli köməkliklər göstərmək, onların yerindəcə problemlərini həll etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunu artırmaq sahəsində əlavə imkanlar yaratmaq, fermerlərin güzəştli kredit imkanlarından daha səmərəli istifadə etməsinə nail olunması məqsədilə muxtar respublikada çoxsahəli ailə təsərrüfatlarının fəaliyyətinin tənzimlənməsi və genişləndirilməsi istiqamətində monitorinqlər aparılıb. Ailə təsərrüfatlarının təşviqi, gələcəkdə onların sayının artırılması və biznes fəaliyyətlərinin genişləndirilməsinə köməklik göstərilməsi məqsədilə işçi qrupu yaradılıb.

Qeyd edək ki, işçi qrupu ailə biznesinə dəstəyi və onun formalaşmasını, bu təsərrüfatlar vasitəsilə məhsul istehsalını, həmçinin xidmətlərin göstərilməsini, innovasiya metodlarının tətbiqi ilə istehsalın və keyfiyyətli malların təşviqini həyata keçirir. Bu məqsədlə işçi qrupu tərəfindən muxtar respublikanın bütün rayon və kəndlərini əhatə etməklə 201 çoxsahəli ailə təsərrüfatlarında maarifləndirici monitorinqlər aparılıb.

Monitorinqlərin nəticəsi göstərir ki, çoxsahəli ailə təsərrüfatları daha çox heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə fəaliyyət göstərirlər. Həmin təsərrüfatların biznes planlarının tərtib olunması, həyata keçiriləcək işlərə maliyyə dəstəyinin verilməsi, hazır məhsulun satışı barədə lazımi istiqamət verilib.

Muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatlarına öz bizneslərini genişləndirməklə yanaşı, onlara kiçikhəcmli süd emalı, balın qablaşdırılması, meyvə qurusu, üzüm və tut doşabı, günəbaxan tumunun qovurulması, mövüc və kompot istehsalı kimi sahələrin yaradılması haqqında tövsiyələr verilib.

Ailə təsərrüfatlarının imkanları dəyərləndirildikdən sonra onlara dövlət maliyyə dəstəyi göstəriləcəkdir.

Əminliklə demək olar ki, işçi qrupu tərəfindən aparılmış monitorinqlər ailə biznesini daha da inkişaf etdirəcək, özünüməşğulluğu artıracaq, büdcə daxilolmalarını şaxələndirməklə ailələrin gəlirlərini və maddi rifah halını yüksəldəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Vergi ödəyiciləri üçün maarifləndirici seminar keçirilib

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən “Elektron qaimə-fakturanın forması” və “Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları” mövzularında keçirilən seminarı Naxçıvan Şəhər Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Süleyman Əliyev giriş sözü ilə açaraq tədbirin əhəmiyyətindən danışdı. O, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin vergi ödəyicilərinin rahat və şəffaf fəaliyyəti üçün önəmindən bəhs edib.***



Vergi ödəyicilərinin iştirak etdiyi seminarda Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov “Elektron qaimə-fakturanın forması” və “Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları” mövzularında çıxış edərək bildirib ki, 2017-ci ilədək mövcud olan qanunvericiliyə əsasən sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasında tətbiqi bir çox hallarda vergidən yayınma hallarına şərait yaradırdısa, 2017-ci ildən elektron qaimə-fakturanın tətbiqi həmin əməliyyatların şəffaflaşdırılması, operativliyin təmin edilməsi, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınması istiqamətində effektiv bir vasitə rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 18 aprel tarixli Qərarı ilə təsdiq edilmiş “Elektron qaimə-fakturanın forması” və “Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları”na əsasən əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və ya ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixdən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

Sonra Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi cinayətlərinin ibtidai araşdırılması şöbəsinin rəisi Cavid Seyidsoy “Nağdsız hesablaşmalar” mövzusunda çıxış edərək bildirib ki, mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığının artırılması, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsinin stimullaşdırılması, pul dövriyyəsinin tənzimlənməsi, bank sisteminin inkişafı məqsədilə bu sahədə “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiq olunub, eyni zamanda Vergi Məcəlləsində də müvafiq əlavə və dəyişikliklər edilib. Qanun təsdiq edilməmişdən əvvəl vergi ödəyicisi ay ərzində heç bir məhdudiyyət qoyulmadan istənilən məbləğdə nağd qaydada hesablaşmalar üzrə ödənişlər apara bilirdisə, yeni tətbiq edilən qanuna əsasən vergi ödəyicilərinin statusundan asılı olaraq təqvim ayı ərzində ümumi məbləği aşağıda qeyd edilən məbləğdən artıq olan hesablaşmalar üzrə ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi müəyyən edilib: ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri 30 min manatdan, digər vergi ödəyiciləri 15 min manatdan.

“Elektron qaimə-fakturanın forması” və “Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları” mövzularında maarifləndirici seminarların 17-26 may tarixləri arasında muxtar respublikanın bütün rayonlarında keçirilməsi nəzərdə tutulub.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Muxtar MƏMMƏDOV**

# “Naxçıvan Muxtar Respublikası fövqəladə hallar atlası”nın müzakirəsi ilə bağlı tədbir keçirilib

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbiri giriş sözü ilə institutun rektoru, AMEA-nın müxbir üzvü Oruc Həsənli açıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2016-cı il 17 mart tarixli Sərəncamı ilə yüksək poliqrafik səviyyədə nəşr olunan atlas böyük əhəmiyyətə malikdir. Yeni nəşrdə muxtar respublikamızın ərazisində gözlənilə bilən təbii, texnogen səciyyəli fövqəladə hallar, aqroiqlim təhlükələri və sosial-bioloji risklər haqqında elmi məlumatlar verilib. Atlas həm də normativ-metodik və tənzimləmə funksiyasına malikdir.



Müzakirədə Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası”nın redaksiya heyəti sədrinin müavini Şamı Abdullayev çıxış edərək bildirib ki, atlasın hazırlanması zamanı əhalinin mülki müdafiəsi, ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində Azərbaycan Respublikasının qanunvericilik aktlarına, qüvvədə olan nizamnamələrə və təlimatlara istinad edilib. Yeni nəşr təbii fəlakətlərin, qəza və faciələrin qarşısının alınmasına və nəticələrinin aradan qaldırılmasına, əhalinin və işçilərin fövqəladə hallardan qorunmasına öz töhfəsini verəcək.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri, “Naxçıvan Muxtar Respublikası fövqəladə hallar atlası”nın redaksiya heyətinin üzvü Hafiz Yaqubov diqqətə çatdırıb ki, atlasın nəşri təbii resurslardan səmərəli istifadə, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, o cümlədən qaz kəmərlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin həll edilməsi məqsədi daşıyır. Yeni nəşrdə dərc olunan materiallardan müxtəlif təbii fəlakətlərin, texnogen qəzaların qarşısının alınması, nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsində istifadə edilə bilər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov, Naxçıvan Müəllimlər İnstitutunun fövqəladə hallar komissiyasının sədri Yaqub Məmmədov, Naxçıvan Müəllimlər İnstitutunun hərbi rəhbəri və mülki müdafiə üzrə baş müəllimi Əvəz İsmayılov çıxış ediblər.

**Ramiyyə ƏKBƏROVA**

# Sülhün və həmrəyliyin harmoniyası

***Naxçıvan istiqamətində hərəkət edən təyyarəmiz ağ pambıq buludların üzərində süzüldükcə xəyalımda ağ rəngin harmoniyası dolanır, qeyri-iradi olaraq düşüncələrim məni bir gün əvvələ aparırdı. IV İslam Həmrəyliyi Oyunlarının möhtəşəm açılış mərasimi və bu tədbirdə Azərbaycanın dünyaya verdiyi, daha çox da çağırış etdiyi sülh və həmrəyliyin, İslam əxlaqı və mədəniyyətinin, tolerant fikir və düşüncənin, qədimlik və müasirliyin harmoniyası, Azərbaycanın İslam aləmində yeri və İslam sivilizasiyasına töhfələri barədə düşünürdüm.***

Dünyanın nəhəng fikir adamları İslam dininin gözəlliyi, ali dəyərləri haqqında həmişə heyranlıqla danışıblar, bu dinə yüksək ehtiram göstəriblər. Zamanın sərt küləkləri yüz illər boyu nəinki İslam dininin dəyərini azaldıb, əksinə, onun əbədiyaşarlığını təsdiq edib. Zaman göstərib ki, bu qüdrətli din axar su kimi, işıq kimi bir zərrə belə, ləkə götürmür. Dünyanın müxtəlif beynəlxalq təşkilatlarının insan və cəmiyyətlə bağlı qəbul etdiyi hüquqi və demokratik prinsiplər daha əvvəllər, daha ali formada “Qurani-Kərim”də öz əksini tapıb. Bəşəriyyəti haqqa, ədalətə, dostluğa, sülhə, insanpərvərliyə çağıran İslam dininin inkişafı sivilizasiyalararası dialoqa və mədəniyyətlərin harmoniyasına daim öz töhfəsini verir.

İslam dini dünyəvi dinlərin sonuncusu və ən mükəmməlidir. İslam özündən əvvəlki bütün dünyəvi dinlərin, həm xristianlığın, həm də musəviliyin ən müsbət tərəflərini əxz edib onların harmoniyasını yaradır. İslam dünya dinləri arasında ən tolerantı və böyük dözümlülük nümayiş etdirən dindir. Bəlkə də, İslamın bu tolerantlığı onun qısa bir müddət ərzində geniş arealda yayılmasının başlıca səbəbi olub. İslam ailə dəyərlərinə, eyni zamanda Qərbin başlıca dəyər olaraq qabartdığı insan azadlıqlarına üstünlük verən, müqəddəsləşdirən bir dindir.

İslamiadanın açılış mərasimində ayrı-ayrı İslam ölkələrinin mədəniyyətini, tarixini, ədəbiyyatını, ümumilikdə isə İslam sivilizasiyasının qızıl dövrünü əks etdirən səhnələr bir daha bizə İslam mədəniyyətinin və onun sivilizasiyalararası dialoqa verdiyi töhfələrin daim bəşəriyyətin tərəqqisi, tolerantlığın formalaşması və inkişafı istiqamətində aparıcı rol oynadığını xatırlatdı. Elm sahəsində məşhur bir kəlam var. Deyirlər ki, ən dahi kəşflər, ən böyük mədəniyyətlər müxtəlif sivilizasiyaların qovşağında yaranır. Bunu gündəlik həyatın bütün sahələrinə, eyni zamanda mədəniyyətə, siyasətə də şamil etmək olar. Bu baxımdan coğrafi mövqeyinə görə mühüm bir bölgədə yerləşən, Mərkəzi Asiya ilə Türkiyəni, İranla Rusiyanı, geniş anlamda Şərqlə Qərbi, Şimalla Cənubu bir-birinə bağlayan Azərbaycan və onun ayrılmaz parçası Naxçıvan Muxtar Respublikası mədəniyyətlərin qovşağı kimi dünya üçün çox əhəmiyyətlidir. Dünya Azərbaycanı modern bir dövlət olaraq, eyni zamanda İslam dininə etiqad edən insanların vətəni, Avropa dəyərlərini əxz etmiş, Qərbə inteqrasiya edən unikal bir məkan olaraq qəbul edir.

Tolerantlıq mühiti olmayan ölkədə sivilizasiyaların, mədəniyyətlərin dialoqundan danışmaq olmaz. Azərbaycan tarixən mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu yer olub. İslam dünyasını Azərbaycansız təsəvvür etmək olmaz. Ölkəmiz İslam dünyasına həmişə böyük abidələr bəxş edib. İslam mədəniyyətinə aid bir çox abidələri qoruyub saxlayıb, yaşadıb: “Qurani-Kərim”də adı keçən Əshabi-Kəhfdən tutmuş sonrakı əsrlərin yadigarı olan bir çox İslam abidələrinə qədər.

Azərbaycan mədəniyyəti, hüquqi, sivil, demokratik dövlət quruculuğu amili məhz İslam mədəniyyəti ilə türk mədəniyyətinin, Avropa dəyərlərinin çox uğurlu sintezindən yaranıb. Ölkəmiz coğrafi mövqeyinə görə qədim dövrlərdən insan məskəni olduğundan hələ İslamdan öncə Azərbaycan ərazisində zəngin bir mədəniyyət, dövlətçilik ənənələri mövcud olub. Biz malik olduğumuz mədəniyyətin zənginliyindən, çoxşaxəliliyindən qürur duyuruq. İslam mədəniyyəti də bizim mədəniyyətin çox ciddi və mühüm tərkib hissəsidir. Məhz buna görədir ki, bir onillikdə iki Azərbaycan şəhəri – Bakı və Naxçıvan İslam mədəniyyətinin paytaxtı kimi şərəfli bir ada layiq görülüb. Bu günlərdə Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları da İslam dünyasında respublikamızın artan nüfuzundan, ölkəmizə olan böyük inam və etibardan xəbər verir.

2018-ci ildə İslam mədəniyyətinin paytaxtı adını daşıyacaq, möhtəşəm tədbirlərə ev sahibliyi edəcək Naxçıvanda ta keçmişdən üzübəri İslam dəyərləri, İslam əxlaqı yüksək səviyyədə qorunub saxlanılıb. Müsəlman Şərqində məscid, mədrəsə, kitabxana, xəstəxana və sair bu kimi ictimai müəssisələrin təsisi ənənəsi Azərbaycan Atabəylər dövləti tərəfindən məhz Naxçıvanda yaşadılıb. Bu, Şərqlə Qərbi birləşdirən körpü rolunu oynayan Naxçıvanın müsəlman aləminin, İslam mədəniyyətinin inkişafında və formalaşmasındakı xüsusi və əhəmiyyətli rolundan xəbər verir.

Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən ticarət yolları üzərində yerləşməsi Naxçıvan şəhərinin iqtisadi-ticarət mərkəzi olmasında, Yaxın Şərq və digər müsəlman ölkələri ilə çoxşaxəli mədəni əlaqələrinin inkişafında əsas faktorlardan biri olub. Bu dövrdə Azərbaycanda təşəkkül tapmış və İslam memarlıq ənənələri əsasında formalaşmış Naxçıvan memarlıq məktəbi Qafqaz, Kiçik Asiya, İran və Mərkəzi Asiyanın memarlığına əhəmiyyətli dərəcədə təsir göstərib.

Planetin 4 qitəsində yerləşən 50-dən artıq İslam ölkəsinin nümayəndələrinin iştirakı ilə təntənəli açılış mərasimi keçirilən IV İslam Həmrəyliyi Oyunları bu gün İslamın mahiyyətini pərdələməyə çalışan, bu dini az qala ekstremizm və terrorizm sözləri ilə eyniləşdirən islamafob qüvvələrə başqa bir mesaj da verdi: terrorizm, ekstremizm İslamla dabandabana ziddiyyət təşkil edən anlayışlardır. İslam mütərəqqi bir din olduğu üçün bəşəri dəyərləri dəstəkləyən dindir. İslam dəyərləri ümumbəşəri dəyərlərin bir hissəsidir. Buna görə də İslam dəyərləri ilə bu gün “Qərb modeli” adlandırılan sistem arasında vəhdət mövcuddur. Həm İslam mədəniyyətini, həm də Avropa mədəniyyəti deyilən məfhumun ən müsbət məqamlarını əxz etməklə demokratik, sivil və davamlı inkişaf edən bir cəmiyyət qurmaq mümkündür. Azərbaycan məhz bu cür cəmiyyəti qurmağa nail olmuş nadir ölkələrdəndir.

Gələcəyimizə aparan yolu müəyyənləşdirmək üçün əvvəlcə öz keçmişimizi qavramalıyıq. İslamın qızıl dövrü dünyamızı formalaşdırmış ideya və ixtiralarla dolu böyük mədəni və elmi irəliləyiş zəmanəsi olub. Buna görə də İslamın geniş yayılması təkcə dini etiqad baxımından yox, həm də mədəni ənənə və elmlə bağlıdır. İslamda qələmə və yazıya and içilir. Bu səbəbdən də elmə, təhsilə yüksək dəyər verən İslam dinində alimin bir damla mürəkkəbi şəhidin qanından daha üstün tutulur, bir gün elmlə məşğul olmaq 40 illik ibadətə bərabər hesab edilir, müəllimin haqqı övlad üzərində atanın haqqı ilə eyniləşdirilir. Açıq düşüncəli və biliklərə can atan insanlar üçün İslam sivilizasiyası görünməmiş əqli ixtiralar fürsətidir.

İslam aləminin birliyini, harmoniyasını təmsil edən IV İslam Həmrəyliyi Oyunları digər bir amili göz önünə gətirir: 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı rolunu oynayacaq Naxçıvanda islami dəyərlərin qorunması, yaşadılması və düzgün şəkildə təbliğ edilməsi üçün görülən məqsədyönlü işlər.

Qeyd edək ki, “İslam mədəniyyətinin paytaxtı” adına layiq görülən şəhər öz ölkəsi, regionu və İslam dünyası səviyyəsində zəngin tarixə malik olmalı, elmin, incəsənətin, ədəbiyyatın inkişafına, həm İslam mədəniyyətinə, həm də bütövlükdə dünya mədəniyyətinə xüsusi töhfə verməlidir. Naxçıvan şəhəri öz tarixiliyi, zəngin mədəniyyəti, yenidən bərpa olunmuş dini abidələri, ibadətgahları, tikilən yeni məscidləri ilə bu meyarlara cavab verdiyinə görə “İslam mədəniyyətinin paytaxtı” adına layiq görülüb. Artıq bu gün İslam dünyasında da hər kəs qəbul edir ki, muxtar respublika türk-islam mədəniyyət nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr verib.

* * *

Həyat 4 ünsürün harmoniyasından qaynaqlanır, pöhrələnir və nicat tapır. İslam aləmində 4 ünsürdən birinin – suyun xüsusi yeri var. Məhz buna görə də IV İslam Həmrəyliyi Oyunları başlamazdan əvvəl “Xəzərdən başlanan səyahət”də su ünsürünün – paklığın, gücün, özünəməxsusluğun, inancın, təravətin harmoniyası bizə təqdim edildi. Çünki su həyatın cövhəridir. O hər bir canlıya həyat verir. Qoynuna almaq, qəbul etmək onun mahiyyətindədir. Onun qüvvəsi isə sakitdir. Su təmkin və inadla ən möhkəm daşı belə, deşir.

Suyun böyük paklıq qüvvəsi var. İslamda o, ibadətin vacib amilidir, cismi və ruhu paklığa aparan yoldur. Biz hamımız fərqliyik, lakin adət-ənənələrimiz və biliklərimiz bizi bir-birimizə bağlayır. Gəldiyimiz və ya getdiyimiz yerdən, dərimizin rəngindən və ya cinsimizdən, yaşımızdan asılı olmayaraq, su bizi birləşdirən universal vasitədir. O, böyük məsafələri qət edərək, müxtəlifliyimizdən keçərək bizə xatırladır ki, öz inancımız və insanlığımızda biz vahidik. Arazın qoynunda Günəş kimi parlayan Naxçıvan şəhəri də İslam mədəniyyətinin paytaxtı kimi dünyaya məhz bu mesajları verəcəkdir.

**Məmməd BABAYEV**

***Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzinin əsas fəaliyyət istiqaməti uşaq və gənclərin mənəvi-estetik tərbiyəsinin yaxşılaşdırılması, bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi və asudə vaxtlarının səmərəli təşkili üçün şərait yaradılmasından ibarətdir.***

# Uşaq və gənclərin mənəvi-estetik tərbiyəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür

Bu günlərdə həmin ünvanda olduq. Mərkəzin direktoru Toğrul Həsənov söhbət zamanı bildirdi ki, bu məktəbdənkənar təhsil müəssisəsi 1990-cı ildən fəaliyyətə başlayıb. Dövlətimizin təhsilə göstərdiyi yüksək diqqət və qayğıdan Estetik Tərbiyə Mərkəzinə də pay düşüb, mərkəzin fəaliyyət göstərdiyi bina əsaslı təmir olunaraq 2004-cü ildə müəllim və şagirdlərin istifadəsinə verilib. Mərkəzin kollektivi Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəbləri şagirdlərinin dərnəklərə cəlbini yaxşılaşdırmaq, onların yaradıcılıq qabiliyyətlərini daha da inkişaf etdirmək və asudə vaxtlarının səmərəli təşkili istiqamətində bir sıra tədbirlər həyata keçirir. Mərkəzdə 116 qrup yaradılıb, bu qruplara 1116 məktəbli cəlb edilib. Onlarla 53 müəllim məşğul olur.



Estetik Tərbiyə Mərkəzində 25 adda studiya fəaliyyət göstərir. Təlimata uyğun olaraq, avqust-sentyabr aylarında mərkəzdə qruplaşmalar aparılır, maraq və yaş xüsusiyyətlərinə görə uşaqlar studiyalara cəlb edilir. Uşaqların maraqlarına uyğun olaraq, bu studiyalarda onlara toxuma, tikmə, rəsm, aplikasiya, bədii qiraət, rəqs, solo ifa, vokal sənətinin sirləri öyrədilir, uşaqlarda xalq yaradıcılığına, milli dəyərlərimizə uyğun vərdişlər aşılanır. Keçirilən bayramlarda, el şənliklərində uşaqlar çıxış edir, qazandıqları vərdişləri nümayiş etdirirlər. Mərkəzdə tarixi və əlamətdar günlərdə tədbirlərin keçirilməsinə böyük əhəmiyyət verilir. Novruz bayramı münasibətilə keçirilən şənliklərdə bu mərkəzin kollektivi də fəal iştirak edir. Bundan başqa, mütəmadi olaraq əl işlərindən ibarət sərgilər təşkil olunur, hərbi hissələrdə əsgərlər qarşısında geniş konsert proqramı nümayiş etdirilir. Bu yaxınlarda mərkəzin öz təşəbbüsü ilə ağac üzərində dekorasiya dərnəyi də fəaliyyətə başlayıb. Bu dərnəyə ilk günlərdən uşaqlar böyük maraq göstərirlər.

Mərkəzin kabinə müdiri Natiq Vəliyev deyir ki, məktəblilərin yay tətili günlərində onların asudə vaxtlarının səmərəli təşkili üçün mərkəzin yay tədbirlər planı hazırlanır. Həmin tədbirlər planına uyğun olaraq, yay tətillərində uşaqların Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkına, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə və Cəmşid Naxçıvanskinin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin ev-muzeylərinə ekskursiyaları təşkil olunur, bir sıra mədəni-kütləvi tədbirlər keçirilir.

Mərkəzin studiya rəhbərlərindən Vilayət Əmirov, Əfsanə Əmirova, metodistlərdən Şükufə Məmmədova, Rahilə Sadiqova, Gülsüm Hüseynova ilə söhbət zamanı bildirdilər ki, mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri də studiyalara məktəblilərin cəlb olunması, onlarda müxtəlif sənət növlərinə maraq oyadılmasıdır. Təəssüf ki, bəzi valideynlər uşaqların məktəbdənkənar dərnəklərə cəlb edilməsinə o qədər də isti münasibət göstərmirlər. Ancaq bütün bunlara baxmayaraq, mərkəzin kollektivi mütəmadi olaraq məktəblərə gedir, studiya üzvlərinin əl işlərinin sərgilərini təşkil edir, uşaqları həvəsləndirmək məqsədilə söhbətlər aparırlar. Bu işlər nəticəsində elə istedadlı uşaqlar ortaya çıxır ki, bu uşaqlar gələcək üçün böyük perspektivlər vəd edir. Misal üçün deyək ki, hazırda Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblında mərkəzin yetirmələrindən bir neçə nəfər uğurlu fəaliyyət göstərir. Rəsm dərnəklərində məşğul olan uşaqların əksəriyyəti hazırda Naxçıvan Dövlət Universitetinin bu sahə üzrə məzunu və tələbələridir.

Estetik Tərbiyə Mərkəzində yaradılan imkanlar, kollektivə göstərilən qayğı, burada gördüklərimiz bizdə belə əminlik yaratdı ki, bu məktəbdənkənar tərbiyə müəssisəsinin kollektivi qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə çalışır, məktəblilərin estetik tərbiyəsinin düzgün istiqamətləndirilməsinə və formalaşdırılmasına töhfəsini verir, gələcəkdə qazanılacaq uğurların daha çox olacağına əminlik yaradır.

**✍ Nail ƏSGƏROV**

Oxucu rəyi, vətəndaş mövqeyi

# Jurnalist Sahil Tahirliyə açıq məktub

*Hörmətli Sahil müəllim!*

"Şərq qapısı" qəzetində çıxan silsilə yazılarınızı oxuduqca məndə sizinlə üz-üzə əyləşib, necə deyərlər, dərdləşmək istəyi yarandı. Sözsüz ki, sözü tutan eyni fikirli adamlar dərdləşə bilərlər! Və belə qərara gəldim ki, üst-üstə düşən fikirlərimizi çoxları ilə paylaşmaq üçün sizə açıq məktubla müraciət edim!

Siz "Naz-Lifan"ı bağlayanlar, dükanlara ağlayanlar, qəbiristanlıqlara "yas saxlayanlar" yazınızla qələmin müqəddəs vəzifəsinə sadiq qalan jurnalist olaraq Naxçıvanın yaxın keçmişdəki reallıqlarını o qədər təbii ustalıqla təsvir etmisiniz ki, mən bir anlığa o illərin soyuğunu, qaranlığını, səksəksini yaşadım... O illəri ki camaat xilaskarının ətrafında birləşdi, ermənini Naxçıvana qoymadı, torpağını qorudu, bu torpağı bir addım belə, tərk etmədi, övladlar böyüdüb tərbiyə etdi, oxutdu, gələcəyini hazırladı... Həyatımız blokadada olsa da, mənəviyyatımız, iradəmiz sınmadı, sarsılmadı! Bir çaydan isti çay tapanda bir çaynikini dəsmala, paltara bükub qonşuya çatdırdıq. İki litr neftimiz vardısa, qonşumuzun da çırağını doldurduq! Xəstələrimizə, əsgərlərimizə, qoca və kimsəsizlərimizə baş çəkdik; əlbəttə, söhbət saf naxçıvanlı xislətindən gedir! O naxçıvanlıdan ki doğulub boya-başa çatdığı vətəninin dar günündə ilğım dalınca düşüb yurdunu tərk etmədi, çalışdı, vuruşdu, sinəsini sipər edərək sərhədlərimizi mənfur düşməndən qorudu, siz dediyiniz kimi, az danışıb, çox iş görərək ömrünü şam kimi yandırıb millətinin yolunu işıqlandırdı, hər ocağı ürəyinin hərarəti ilə isitdi. Necə deyərlər, Naxçıvanı gözəlləşdirərək naxçıvanlılara sevdirən oğullara bu torpağın suyu, havası, bütün naz-nemətləri halal olsun!

Sadalamağa ehtiyac duymuram, hər şey göz qabağındadır! Bütün bunlar Naxçıvanı Qafqazın "San-Fransiskosuna", Azərbaycanın "yaşıl ürəyinə" çevirən muxtar respublika rəhbərinin uzaqgörən, məqsədyönlü, həm də vətəndaş qayğıkeşliyi ilə həyata keçirdiyi işlərin nəticəsidir.

***Düz sözə nə deyəsən, yaxud deməsək olmur***

Oğlum Sahil, "Vicdanını pula satan nadanlar", "Bizə toy tutan toylar", "Təbiətin dibini-kökünü qazanlar", "Alayarımçıq müxbirlərin cəviz sevdası" yazılarınızı oxuduqca öz-özümə bir sual verdim: düz sözə nə deyəsən?! Sənin yaşından irəli olanlardan, yadından çıxanlardan, diqqətində olub da dilə gətirmədiyin Naxçıvan həqiqətlərindən mən də 70 yaşlı ana, nənə, vətəndaş və oxucu kimi azca danışım. Deməsək olmur! Axı biz dərdləşirik!

Naxçıvanda möhtəşəm quruculuq işləri başlayanda qaragüruhçular başlayırdı "havara". Zirzəmilərdə, binaların qarşısında, yol üstündəki yöndəmsiz, antisanitariya mənbəyi olan dükan, çayxana və budkaları sökməyə başlayar-başlamaz yenə başlayırdılar "havara". Bir əraziyə qanunsuz çəkilən hasarı sökəndə, yerində bina inşa etməyə başlayan kimi eşidirdin: "Filan yer dağıldı, havar". Şəhərimizdəki Heydər Əliyev prospektindəki böyük doqquzmərtəbəli yaşayış binalarını yenidən qurmağa başlamışdılar, dərhal söz yayıldı: "Camaatı köçürdürlər".

Beləcə, sökülənlərin yerində dövlət əhəmiyyətli tikililər görəndə, yüksək ticarət mədəniyyəti əks etdirən alış-veriş mərkəzləri açılanda, köhnə yaşayış binaları yenidən təmir edilib sakinlərin istifadəsinə veriləndə "havar" salanlar utandı! Amma, görəsən, xəcalət çəkdilər?! Qaragüruhçuların bağırdığı kimi "repressiya" yox, ictimai nəqliyyat və taksi sürücüləri – deyərdim – əsl intibah mədəniyyətinə sahib olublar. Maşın tərtəmiz, səliqəli sürücü geyimi, gözdən, dildən və əldən tərbiyəli, səriştəli insanlar: taksiyə minəndə elə bil oğlumun maşınına minirəm. Alqış bu mədəniyyəti tərbiyə edənlərə!

Qəbiristanlıqlar sökülmür, ay bədniyyətlər! Abadlaşır, gülkarlığa, yaşıllığa qərq olur! Nəyi pisdir? Ölünün heç nəyə ehtiyacı yoxdur. Xatirəsini anmaq üçünsə həyat rəmzi olan bir cüt çiçək, bir yaşıl budaq bəs edər! Yöndəmsiz çəpərlərə ilişə-ilişə doğmalarımızı ziyarət etməyə gedəndə məcburən bir qəbri ayaqlayıb keçməli olurduq axı...

Vəfat edənlərə üç gün yas, bir gün ehsan verilir: çox gözəl! Alqışlayıram! Kim necə yaşayır, elə də ölür! Əvvəla, ən möhtəşəm abidəni insan sağlığında özü-özünə ucaltmalıdır: bu abidə onun cəmiyyətə, vətənə layiq yetirib-bitirdiyi, tərbiyə elədiyi övladları, nəslidir: ikincisi odur ki, bizim gözəl milli dəyərlərimiz var: ailənin müqəddəsliyi, ata-anaya, övlada məhəbbət, qocaya, xəstəyə qayğı, ehtiram! İnsan bunları sağlığında görməlidir. Allahın verdiyi ömür payını sakit, rahat, ağrısız yaşamaq üçün övladlarım, gəlinim, nəvələrim ailə büdcəsi hesabına mənim sağlamlığımın qeydinə qalırsa, öləndən sonra alnıaçıq, başı uca olsunlar: məni Naxçıvan torpağına tapşırıb, Naxçıvan daşından başdaşı qoymaqları kifayətdir. Jitomirdən gəlmiş qara mərmərə o dünyada kimin nə ehtiyacı var?!

Belə-belə işlər, Sahil, oğlum! Hələ ki yaşayırıq. Ölümdən danışdığımız bəsdir! Toylardan, xeyir işlərdən danışaq: sən deməli, toylar da ki, bizə toy tutur! Yaxın keçmişdə bilirsən toylar necə idi? Ağ yolsuz, şar yağışsız, fotosessiyasız, kamerasız, fotoqrafsız həyətdə qurulan toy məğarı! Çalınan qara zurnanın səsi dağlarda əks-səda verərdi. Yaşlılar oturub cavanların oynayıb-şənlənməsinə tamaşa edər, cavanlar qürurla ana-bacısını, qohum-qızlarını, hətta gözaltısını rəqsə çağırardı. Axşam gəlin köçəndə qazan üstə aparardılar: bu qazan "kəbin aşı" deyilən sadə, 15-20 nəfərlik xörək idi. Gəlin evə girəndən sonra ən yaxın qohumlardan ibarət ağsaqqallar kəbin xörəyinə oturardılar. Təmənnasız, pulsuz-parasız!

Hələ bir gün əvvəlki qız evindəki xına axşamı südaşı bişirilib 10-15 qaba çəkilirdi, gəlinin əlinə xına yaxan qızgəlin südaşından yeyib, çalıb-oynayır, gecəyarısı bir məcməyidə bəyə xına aparardı. Gəlin köçənin sabahısı gün qız evi görüşə gedəndə südlü xəmirdən təndirdə bişmiş "yeznə qalını" aparardı.

Mən mühafizəkar deyiləm. İnsan həyatına, xalqa, cəmiyyətə xeyir gətirən yeniliyi və tərəqqini alqışlayıram! Ancaq təəssüf ki xına axşamı, ciyər axşamı, xaşlama gecəsi "məsum südaşı"nı, növbənöv adını bilmədiyimiz salatlar, növbənöv kabablar, soyutmalar, qızartmalar, kürülər, göbələklər, dondurmalar, meyvələr, çərəzlər, daha nələr-nələr "kəbin aşını", 5-6 mərtəbəli tortlar "yeznə qalını"nı süfrəmizdən çıxartdı. Bu israfçılığa və ifratçılığa dözmək olmur. Bax onda Sahil müəllim, bizə toy tutulur. Elə toy ki, az qala, cavanların 2-3 uşağı olana qədər bu toyun "altından" çıxa bilmirlər. Bu haqda düşünüb əməli işə keçməyin vaxtıdır. Hələ demirəm nişan toyları, sünnət toyları, ad günü, yubiley toyları, uzaq olsun – "ikinci toylar"...

Sünnət toyu demişkən, 10 il əvvəl 2 nəvəmə sünnət toyu edəcəkdim, belə demək mümkünsə, bir "ssenari" tərtib etdim və həyata keçirdim: teatrdan xahiş edib Dədə Qorqud obrazını oynayan aktyoru dəvət etdim, uşaqlar "Vağzalı" yox, xahişimlə "Cəngi" sədaları altında toyxanaya daxil oldular. Musiqiçilərdən xahiş etdim ki, toyda yad musiqilər çalınmasın. Dədə Qorqud uşaqlara xeyir-dua verib, başlarına milli papaq qoyub dedi: "Papağı mən qoydum, kişiliyi özün qazan". Dədə uşaqlarla əl tutub yallı getdi. Sonra "Qaytağı" rəqsi ifa edildi, hamı əl çalıb ayağa qalxdı: toyun sonunda "Nəğmə olmaq istəyirəm, ay ana" mahnısının sədaları altında toydakı bütün uşaqlar anaları ilə rəqs etdilər. Toydan sonra dostlardan biri: "Sağ olun, sizin toyda dincəldik", – dedi. Mən çalışdım ki, bu toya milli rəng qatam! Bu gün isə "Sünnət toyu" ifadəsi utanc doğurur. Ona görə də axırıncı nəvəmi doğum evindən gələn kimi 13 günlüyündə səssiz-küysüz sünnət etdik.

Daha nə danışaq, Sahil müəllim?! Yaralı yerimizdən biri də dözə bilmədiyimiz "Təbiətin dibini-kökünü qazanlar"dır. Dünyanın ekoloji həyəcan təbili çaldığı bir dövrdə Azərbaycanın qiymətli fauna və florasına çoxlarının həsəd apardığı bir zamanda, bu naqislər dərk eləmir ki, təbiətin dibini-kökünü qazmaqla öz nəsillərinin kökünü zədələyib, şikəst edirlər... 50-55 il əvvəl kəndimizin insanları dağlardan karvanqıran, dəvətikanı kimi oduncaqlı kolları külünglə qırıb yığar, təndirdə yandırıb çörək bişirərdilər. Kəndimizdə bir zootexnik var idi, o yaşlı kişi atla çölləri gəzərək camaatın o kolları qırmasını qadağan etmişdi. Bir dəfə atama sual verdim: – Ata, oralar Cavad ağanındır? Atam dedi: – Oralar hamımızındır, qızım! Mal-heyvanımız orada otlayır. Ona görə də Cavad ağa icazə vermir o kolların kökü kəsilsin... Mən bu gün 70 yaşımda dərk edirəm ki, o zaman südümüz niyə yağlı, ətimiz niyə dadlı idi! Adamlarımız sağlam və gümrah idilər...

Ordubadın Nürgüt kəndi ərazisində dağlar arasında yüksəklikdə bir göl var – Göygöl! Çox da böyük olmayan bu göl iyul, avqust aylarında insanı üşüdür. O çətin yolu qalxıb bu gölə çatmağın özü böyük istək, arzudur! İnsan elə bil həsrətinə qovuşur. Nə yazıq ki Arazın sazanını yeyib doymayan hissiz, duyğusuz insanların bu göldə qızıl balığa qarmaq atdığını da görmüşəm... Haray çəkmək istəyirəm... Ey insanlar, təbiətə qənim kəsilməyin, təbiətin qisası güclü olar!

Sahil, oğlum, "Alayarımçıq müxbirlərin" cəviz sevdası lap adamın ətini tökür. Onu-bunu bilmirəm: Naxçıvanda ağac kəsmək söhbəti eləmək bişmiş toyuğun gülməyinə bərabərdir. Ömrünü-gününü bu diyarın yaşıllaşdırılmasına, ağac əkməyə, bağ salmağa, ting bəsləməyə sərf edənlər, az qala, torpağa sancılan hər kolun, qələmin sayını-hesabını apararaq "birinin başından bir tük əskik olmasına" yol vermirlər. O da qala qiymətli, xeyirli cəviz ağaclarına.

Deyirlər desinlər. Deyənlər azdı, eşidənlər çoxdu, həqiqəti başa düşənlər daha çoxdu! Qarayaxanlar, yarımçıqlar, naqislər olub, indi də var. Çayxanalar ləğv olundu, avaraların "loğaz ədəbiyyatı" da ləğv olundu, qazanan biz olduq. Ərzaq növbələri, yanacaq növbələri ləğv olundu, "bığıburmaların" şər, böhtan qeybətləri də məhv oldu. Yas günləri azaldı, cahil, nadan, boşbeyin adamların çənə söhbətləri də azalacaq. İndi onların tör-töküntüləri sosial şəbəkələrin qurum basmış tavanından asılı qalıb yellənir. Onların da gözləri gözəlliyi görməyincə kor olacaq. Ağzına gücü çatmayanlar sosialcasına bağırsalar da, karvan keçəcək!

Sahil, oğlum, söhbətləşdik, dərdləşdik... Unutma, pislər məhkədaşdı. Məhkdaşları olduqca yaxşıların yaxşılığı daha qabarıq görünəcək. Sən yaz, mən oxuyum, yenə nə vaxtsa qismət olar dərdləşərik...

**Nubar ABDULLAYEVA**
*Naxçıvan şəhər sakini, filoloq*

*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və filologiya üzrə fəlsəfə doktoru Samirə Həsənovanın həmmüəllifi olduqları "Məhəmməd ağa Şahtaxtlı: görkəmli dilçi və naşir" adlı monoqrafiya işıq üzü görüb.*

Yeni nəşrlər

## Məhəmməd ağa Şahtaxtlı irsinə dəyərli töhfə



AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin qərarı ilə nəşr olunan monoqrafiyada görkəmli maarifçi-ədib və naşir Məhəmməd ağa Şahtaxtlının dilçilik irsi araşdırılır. Həmçinin əsərdə Məhəmməd ağa Şahtaxtlının ana dili məsələləri, o cümlədən əlifba, terminologiya, tərcümə, ana dilinin saflığı, dil tədrisi haqqında düşüncə və görüşləri o dövrün mətbuat orqanlarının materialları əsasında ətraflı şəkildə təhlil və tədqiq olunur.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2006-cı il 27 fevral tarixdə "Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvan şəhərindəki Kitab evinə görkəmli maarifçi-publisistin adı verilib, onun xatirəsi əbədiləşdirilib. Həmçinin Azərbaycan elmində, təhsilində, dövlət quruculuğunda, diplomatiyada, mətbuat tarixində böyük xidmətləri olan Şahtaxtinskilərin ayrı-ayrı nümayəndələri barədə araşdırmalar aparılıb, onların həyatları arxiv materialları əsasında öyrənilib və bir sıra kitab, monoqrafiya, məqalələr yazılaraq geniş ictimaiyyətə təqdim edilib.

"Məhəmməd ağa Şahtaxtlı: görkəmli dilçi və naşir" monoqrafiyası da məhz bu sərəncamın icrası istiqamətində həyata keçirilən növbəti tədbirlərdən biridir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## 56-60 yaşlı əhalinin kütləvi dispanserizasiyası davam edir

***Dispanserizasiya əhalinin sağlamlıq vəziyyətinin qorunmasında səmərəli bir üsul kimi hazırda bütün dünyada qəbul olunaraq tətbiq edilir. Profilaktik tədbirlər düzgün həyata keçirildikdə xəstəliklərin vaxtında aşkar olunması, sağalması asanlaşır, ağırlaşmaların qarşısı alınır, insanların əmək qabiliyyətləri qorunub saxlanılır, əlillik azalır. Bu məqsədlə müxtəlif yaş qruplarına, xüsusən risk qrupuna daxil olan əhali kütləvi profilaktik müayinələrə cəlb olunur.***

Son illərdə insanlar arasında ürəyin işemik xəstəlikləri, hipertoniya, şəkərli diabet, onkoloji və digər xəstəliklərin sayı artdığından onlar arasında profilaktik müayinə tədbirlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir. Qanda xolesterinin miqdarının çoxluğu siqaretçəkmə, yüksək arterial təzyiq, şəkərli diabet, oturaq həyat tərzi, adinamiya, qeyri-düzgün qidalanma, kəskin və xroniki streslərə məruzqalma halları damarların zədələnməsinə, ateroskleroz prosesinin inkişafına səbəb olur. Beləliklə, ürək, beyin, aorta, aşağı ətraf arteriyalarında aterosklerotik düyünlər formalaşır ki, bunlar da sonradan inkişaf edərək ürəyin işemik xəstəliklərinə, beyin-qan dövranının pozulmasına, aşağı ətraf arteriyalarının tıxanmasına səbəb olur. Nəticədə, miokard infarktı, stenokardiya, insult, aşağı ətrafın qanqrenası kimi ağır xəstəliklər yaranır. Belə xəstəliklərin qarşısını vaxtında almaq məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq bu il mayın 1-dən 56-60 yaşlı əhalinin kütləvi müayinələri tədbirləri, dispanserizasiyası aparılır.

Müayinələr Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında tərtib edilmiş iş qrafiki əsasında – terapevt, cərrah, stomatoloq, nevropatoloq, oftalmoloqlar tərəfindən həyata keçirilir, ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələri təşkil edilir. Müayinə olunanlarda qanda xolesterinin təyin edilməsi üçün mərkəzi rayon xəstəxanalarına və Naxçıvan Şəhər Poliklinikasına portativ aparatlar verilib və stript testi ilə təmin edilib. Naxçıvan şəhərində müayinələrin 12 sahə üzrə aparılması nəzərdə tutulub. Artıq birinci sahəni əhatə edən yaşayış massivində 90 nəfər müayinədən keçirilib. Rayonlarda da feldşer-mama məntəqələri, həkim ambulatoriyaları üzrə həkim müayinələri və xolesterinin miqdarının təyini davam etdirilir.

56-60 yaşlı əhalinin kütləvi müayinələrinin oktyabr ayına kimi başa çatdırılması nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 416